# Patent qrupu üzrə test tapşırıqları

1. "İxtiraya patent almaq üçün iddia sənədinin tərtibi, verilməsi və baxılması Qayadaları" hansı əmrlə təsdiqlənib?

A) Dövlət Elm və Texnika Komitəsinin 5 iyul 1999-cu il tarixli 09 saylı Əmri ilə

B) Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli əmri ilə

C) 2009-cu il 24 iyun tarixli 116 nömrəli, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin qərarı ilə

D) Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli əmri ilə

E) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarı ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

2. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 7-ci maddəsinin 1-ci və 2-ci bəndinə uyğun olaraq sadalananlardan hansılar ixtira obyektləri ola bilməz?

A) Qurğu, üsul, maddə, mikroorqanizm ştammları

B) Əvvəllər məlum olan qurğunun, üsulun, maddənin, mikroorqanizm ştammının eyni təyinatla tətbiqi

C) Bitki hüceyrələrinin kulturaları

D) Əvvəllər məlum olan qurğunun, üsulun, maddənin, mikroorqanizm ştammının yeni təyinatla tətbiqi

E) Heyvan hüceyrələrinin kulturaları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

3. İxtira obyekti sayılan qurğular, konstruksiyalar, məmulatlar hansı əlamətlərlə səciyyələndirilir?
1)Elementlər arasında əlaqənin olması;
2)Elementin (elementlərin) parametrləri, başqa xarakteristikaları və onların qarşılıqlı əlaqəsi;
3)Elementlərin qarşılıqlı yerləşməsi;
4) Təsir və ya təsirlər cəminin mövcudluğu.

A) 1,3,4

B) 1,2,4

C) 1,2,3

D) 2,3,4

E) 1.4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

4. Sadalanan əlamətlərdən hansı ixtira obyekti sayılan üsul üçün səciyyəvidir?

A) Elementin (elementlərin) və ya qurğunun bütövlükdə yerinə yetirilmə
forması, o cumlədən, həndəsi forması

B) Elementin (elementlərin) materialı və ya elementin funksiyasını yerinə yetirən qurğu, mühit

C) Elementin (elementlərin) parametrləri, başqa xarakteristikaları və onların qarşılıqlı əlaqəsi

D) Təsirin həyata keçirilmə şərtləri, rejimləri, maddənin (ilk xammal, reagent, katalizator və s.), qurğunun (ləvazimat, alət, avadanlıq və s.), mikroorqanizm ştammlarının, bitki və heyvan
hüceyrələrinin quruluşlarının istifadə olunması

E) Elementlər arasında əlaqənin olması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

5. İxtira obyekti sayılan üsul hansı əlamətlərlə səciyyələndirilir? 1) zamandan asılı olaraq bu cür təsirlərin yerinə yetirilmə qaydaları (ardıcıl, eyni vaxtda, muxtəlif variantlarda və s.); 2) elementin (elementlərin) parametrləri, başqa xarakteristikaları və onların qarşılıqlı əlaqəsi; 3) elementlərin qarşılıqlı yerləşməsi; 4) təsir və ya təsirlər cəminin mövcudluğu;

A) 2.3

B) 1.2

C) 3.4

D) 1.3

E) 1.4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

6. Sadalanan əlamətlərdən hansı ixtira obyekti sayılan qurğular, konstruksiyalar, məmulatlar üçün səciyyəvidir?

A) Təsir və ya təsirlər cəminin mövcudluğu

B) Elementin (elementlərin) və ya qurğunun bütövlükdə yerinə yetirilmə forması, o cumlədən, həndəsi forması

C) Zamandan asılı olaraq bu cür təsirlərin yerinə yetirilmə qaydaları (ardıcıl, eyni vaxtda, muxtəlif variantlarda və s.)

D) Maddənin (ilk xammal, reagent, katalizator və s.), qurğunun (ləvazimat, alət, avadanlıq və s.), mikroorqanizm ştammlarının, bitki və heyvan hüceyrələrinin quruluşlarının istifadə olunması

E) Təsirin həyata keçirilmə şərtləri, rejimlərinin istifadə olunması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

7. İxtira obyekti kimi süni surətdə yaradılan maddi törəmələrin növlərinə nələr aid edilir?
1)Fərdi kimyəvi birləşmələr və onlara şərti aid edilən yüksək molekulyar birləşmələr və gen mühəndisliyı obyektləri;
2) Plazmalar, vektorlar, nuklein turşularının rekombinat molekulları və nuklein turşularının fraqmentləri;
3) Fərdi mikroorqanizm ştammları, bitki və heyvan hüceyrələrinin kulturaları;
4) Mikroorqanizm, bitki və heyvan hüceyrələri kulturalarının konsorsiumları.

A) 1.2

B) 1.3

C) 1.4

D) 2.3

E) 3.4

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

8. Hansı obyektlər ixtira obyektləri sayılmır?
1) Elmi nəzəriyyələr;
2) Bitki hüceyrələrinin kulturaları;
3) Bədii-konstruktor işlərinin nəticələri (dizayn);
4) Kompüter alqoritmləri və proqramları.

A) 1,2,3

B) 2,3,4

C) 1,2,4

D) 1,3,4

E) 2.3

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

9. Sadalananlardan obyektlərdən hansılar ixtira obyektləri sayılmır?

A) İnsan və heyvan orqanizmlərinin müalicəsinin cərrahi və terapevtik üsulları, xəstəliyin diaqnostika
metodları

B) Bitki və heyvan hüceyrələrinin kulturası

C) Bitki və heyvan hüceyrələri kulturalarının konsorsiumları

D) Gen mühəndisliyı obyektləri

E) Mikroorqanizm ştammı

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

10. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq iddia sənədinin tərkibinə aid deyildir:

A) Patent verilməsi haqqında ərizə

B) Ədəbiyyatda mövcud olan oxşar patentlərin ədəbiyyat siyahısı

C) İxtiranı həyata keçirmək üçün onu tam şəkildə açıqlayan ixtiranın təsviri

D) İxtiranın mahiyyətini ifadə edən və tamamilə ixtiranın təsvirinəəsaslanan ixtiranın düsturu

E) Referat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3 cü bənd)

11. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq iddia sənədinin tərkibinə aid olan Referat hansı dillərdə olmalıdır?

A) Yalnız Rus

B) Yalnız Fransız

C) Azərbaycan, Rus və İngilis

D) Yalnız Alman

E) Yalnız İngilis

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

12. İxtira obyekti sayılan mikroorqanizm ştammlarına, bitki və heyvan hüceyrələri kulturasına nələr aiddir?

A) Fərdi kimyəvi birləşmələr və onlara şərti aid edilən yüksək molekulyar birləşmələr

B) Nuklein turşularının rekombinat molekulları və nuklein turşularının fraqmentləri

C) Gen mühəndisliyı obyektləri

D) Plazmalar, vektorlar

E) Fərdi mikroorqanizm ştammları, bitki və heyvan hüceyrələrinin kulturaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

13. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq İddia sənədinə qoşulan sənədlərə aid deyildir:

A) Zəruri olduqda isə rüsumun məbləğinin azaldılmasına əsas verən sənəd

B) İddia sənədinin verilməsi üçün müəyyənləşdirilmiş məbləğdə rüsumun ödənildiyini təsdiqləyən
sənəd

C) Toksikoloji və ekologiyaya təsir edən maddələr, üsullar və qurğu obyektləri üzrə iddia sənədlərinə toksikoloji və ekoloji zərərsizliyi təsdiqləyən sənəd

D) İddiaçının şəxsiyyət vəsiqələrinin surəti

E) İddia sənədi patent müvəkkili vasitəsilə verildiyi halda iddiaçı tərəfindən patent müvəkkilinə vəkalət verildiyini təsdiq edən sənəd

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

14. Patent müvəkkilinin müvəkkilliyini təsdiq edən sənəd iddia sənədi verildiyi tarixdən nə qədər müddət ərzində təqdim edilməlidir?

A) 2 ay ərzində

B) 5 iş günü ərzində

C) 2 iş günü ərzində

D) 6 ay ərzində

E) 12 ay ərzində

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

15. Konvensiya ilkinliyi xahiş edildikdə, iddia sənədini qəbul etmiş orqan tərəfindən ilk iddia sənədinin surəti və ya həmin patent haqqında biblioqrafik məlumat və ixtira düsturunun tərcüməsi təsdiqlənmiş formada, iddia sənədinin Azərbaycan Respublikasının Patent idarəsinə daxil olduğu tarixdən hansı müddət ərzində təqdim edilə bilər?

A) 1 il ərzində

B) 3 aydan gec olmayaraq

C) 1 aydan gec olmayaraq

D) 10 gündən gec olmayaraq

E) 5 iş günü ərzində

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

16. Mikroorqanizm ştammına bitki və heyvan hüceyrələri kulturalarına, onun alınmasına və ya istifadə edilməsinə aid ixtiraya dair iddia sənədinə hansı sənəd əlavə edilməlidir?

A) Bitki və heyvan hüceyrələri kulturalarının əyani nümunələri

B) Bitki və heyvan hüceyrələri kulturalarının laminsiya nümunələri

C) Bitki və heyvan hüceyrələri kulturalarının 3D formatda şəkilləri

D) Bitki və heyvan hüceyrələri kulturalarının 6 ədəd 3x4 şəkil nümunələri

E) Ştammın, bitki və heyvan hüceyrələri kulturalarının buna rəsmi müvəkkil edilmiş kolleksiyada - depozitarda depozitləşməsi haqqında sənəd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

17. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq depozitləşmə nə zaman edilə bilər?

A) İddia sənədi verildikdən 1 ay sonra

B) İddia sənədi verildikdən 6 ay sonra

C) İddia sənədi verildikdən 1 il sonra

D) İddia sənədinin verilmə tarixinədək və ya onunla eyni zamanda

E) İddia sənədi verildikdən 2 ay sonra

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

18. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq patent verilməsi haqqında ərizə (iddia senədinin yazılış dili) hansı dildə təqdim edilməlidir?

A) Azərbaycan dilində

B) İngilis dilində

C) Rus dilində

D) Fransız dilində

E) Azərbaycan və İngilis dilində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

19. Patent haqqında Azərbaycan Respublikasının Qanunun 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq iddia sənədinin başqa dildə verilmiş materiallarının azərbaycan dilinə tərcüməsi iddia sənədinin MPEM-ə verildiyi tarixdən hansı müddətdə təqdim olunmalıdır?

A) 5 iş günü ərzində

B) 1 ay ərzində

C) 2 ay ərzində

D) 6 ay ərzində

E) 10 gün ərzində

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

20. Patent verilməsi haqqında ərizə, ixtiranın təsviri, ixtiranın düsturu, ixtiranın mahiyyətini başa düşmək üçün çertyojlar və digər materiallar həmçinin referat neçə nüsxə təqdim edilir?

A) 1 nüsxə

B) 3 nüsxə

C) 2 nüsxə

D) 4 nüsxə

E) 5 nüsxə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27 (3-cü bənd)

21. Azərbaycan Respublikasının patenti verilməsi xahişini göstərə qrafada (71-ci qrafada) hansı məlumatlar göstərilməlidir?

A) Patent istəyən iddiaçı şəxs haqqında məlumatlar, fiziki şəxsin soyadı, adı, atasının adı və ya hüquqi şəxsin rəsmi adı, həmçinin onun yaşayış yeri, yerləşdiyi dövlətin adı və ünvanı

B) Patent istəyən iddiaçı şəxsin ailə üzvlərinin sayı

C) Patent istəyən iddiaçı şəxsin iş yerindən arayışının surəti

D) Patent istəyən iddiaçı şəxsin ali təhsilini təsdiq edən sənədlərin surəti

E) Patent istəyən iddiaçı şəxsin soyadı, adı, atasının adı və fəlsəfə diplomunun surəti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

22. ............ixtiranı həyata keçirmək üçün kifayət edən dərəcədə ixtiranın mahiyyətini açıqlamalıdır və ixtiranın düsturu ilə müəyyən edilən hüquqi muhafizənin həcmini təsdiq etməlidir.

A) Təsvirin strukturu

B) İxtiranın adı

C) İxtiranın müəllifi

D) İxtiranın aid olduğu texnika sahəsi

E) İxtiranın təsviri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

23. ........əlamətlər məcmusu ixtiranın mühüm əlamətlər məcmusuna oxşar olan, ilkinlik tarixinə qədər məlum olan eyni təyinatlı vasitədir. Nöqtələrin yerini tamamlayın:

A) İxtiranın analoqu

B) İxtiranın aid olduğu texnika sahəsi

C) İxtiranın təsviri

D) İxtiranın müəllifi

E) İxtiranın adı

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

24. «İxtiranın həyata keçirilməsi imkanını təsdiq edən məlumatlar» bölməsində nə göstərilir?

A) Müəllifin ad, soyad və ata adı

B) "İxtiranın mahiyyəti" bölməsində göstərilmiş texniki nəticənin əldə edilməsi imkanı göstərilir

C) İxtiranın müəllifi

D) İxtiranın analoqu

E) İxtiranın aid olduğu texnika sahəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

25. Qurğuya aid olan ixtiranın həyata keçirilməsi imkanını təsdiq edən məlumatlara nə daxildir?

A) Maddi obyekt üzərində ardıcıl əməli hərəkətlərin (əməliyyatların) aparılması şərtləri

B) Konkret rejimlər (temperatur, təzyiq və s.) və bu zaman istifadə olunan qurğular

C) Qurğunun konstruksiyasını açıqlayan statik vəziyyətdəki təsviri

D) Konkret rejimlər (temperatur, təzyiq və s.) və bu zaman istifadə olunan maddələr

E) Konkret rejimlər (temperatur, təzyiq və s.) və bu zaman istifadə olunan ştammılar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

26. Strukturu müəyyən edilməmiş yüksək molekulyar birləşmələrin alınması üsuluna aid olan ixtira üçün, ixtiraya aid verilən misallarda hansı məlumatlar olmalıdır?
1) İlkin reagentlərin müxtəlif ölkələrdə satış qiymətlərinin siyahısı;
2) Həmin birləşmənin identifikasiyası üçün lazım olan məlumatlar;
3) Birləşmənin təyinatını müəyyən edən xassələr haqqında məlumatlar;
4) Yüksək molekulyar birləşmənin alınması üçün ilk reagentlər haqqında məlumatlar.

A) 1,2,3

B) 1.3

C) 1.4

D) 2,3,4

E) 1,2,4

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

27. İxtira obyekti sayılan mikroorqanizm ştammlarına, bitki və heyvan hüceyrələri kulturasına nələr aiddir?
1)Fərdi mikroorqanizm ştammları, bitki və heyvan hüceyrələrinin kulturaları;
2)Fərdi kimyəvi birləşmələr və onlara şərti aid edilən yüksək molekulyar birləşmələr;
3) Mikroorqanizm, bitki və heyvan hüceyrələri kulturalarının konsorsiumları;
4) Nuklein turşularının rekombinat molekulları və nuklein turşularının fraqmentləri.

A) 2.4

B) 1.2

C) 1.4

D) 3.4

E) 1.3

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7 (1 və 2-ci bənd)

28. Tərkibi müəyyən edilməmiş qarışığın və konkret təyinatlı və ya bioloji aktiv xassəli strukturun alınması üsuluna aid olan ixtira üçün, ixtiraya aid verilən misallarda hansı məlumatlar verilməlidir?
1) Sulun aparılma şəraiti;
2) Qarışığın təyinatını müəyyən edən xassələr haqqında məlumatlar;
3) Üsulun təxmini iqtisadi dəyəri (AZN ilə).

A) 1.2

B) 1.3

C) 2.3

D) Yalnız 3

E) Yalnız 1

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

29. İxtiranın düsturu haqqında sadalanan fikirlərdən hansı yanlışdır?

A) İxtiranın düsturu, ixtiranın mahiyyətini ifadə edir

B) İxtiranın düsturu 5-6 cümlə ilə ifadə edilir

C) İxtiranın düsturu patentlə verilən hüquqi mühafizə həcmini təyin edir.

D) İxtiranın düsturu, ixtiranın mühüm əlamətlərinin məcmusunun məntiqi tərifi şəklində ifadə edilir

E) İxtira düsturundakı əlamətlər elə ifadə olunur ki, onların eyniləşdirilməsini təmin etmək mümkün olsun

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

30. Hansı hallarda ixtiranın birbəndli düsturu tətbiq edilir?

A) Bir ixtiranın xüsusi hallara aid ifasına və ya istifadə edilməsinə görə, inkişaf etdirilən və (və ya) dəqiqləşdirilən mühüm əlamətlər məcmusu olduqda

B) Bir ixtiranın xüsusi hallara aid ifasına görə, inkişaf etdirilən mühüm əlamətlər məcmusu olduqda

C) Bir ixtiranın xüsusi hallara aid ifasına və ya istifadə edilməsinə görə, inkişaf və ya dəqiqləşdirilməyə malik olmayan mühüm əlamətlər məcmusu olduqda

D) Bir ixtiranın xüsusi hallara aid ifasına görə dəqiqləşdirilən mühüm əlamətlər məcmusu olduqda

E) Bir ixtiranın xüsusi hallara aid istifadə edilməsinə görə, inkişaf etdirilən mühüm əlamətlər məcmusu olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

31. Hansı hallarda ixtiranın çoxbəndli düsturu tətbiq edilir?

A) Bir ixtiranın xüsusi hallara aid ifasına və ya istifadə edilməsinə görə, inkişaf və ya dəqiqləşdirilməyə malik olmayan mühüm əlamətlər məcmusu olduqda

B) Bir ixtiranın xüsusi hallara aid ifasına görə dəqiqləşdirilən mühüm əlamətlər məcmusu olduqda

C) Bir ixtiranın xüsusi hallara aid istifadə edilməsinə görə, inkişaf etdirilən mühüm əlamətlər məcmusu olduqda

D) Bir ixtiranın xüsusi hallara aid ifasına və ya istifadə edilməsinə görə, inkişaf etdirilən və (və ya)
dəqiqləşdirilən mühüm əlamətlər məcmusu olduqda

E) Bir ixtiranın xüsusi hallara aid ifasına görə, inkişaf etdirilən mühüm əlamətlər məcmusu olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

32. Bir qrup ixtiranı xarakterizə edən ixtira düsturunu ifadə etdikdə aşağıdakı qaydalardan hansılara riayət olunmalıdır?
1) Ayrı-ayrı ixtiraları xarakterizə edən müstəqil bəndlərdə ixtira düsturunun digər bəndlərinə istinadlar olmamalıdır;
2) Asılı olan bəndlər, onların tabe olduqları müstəqil bənd ilə birlikdə qruplaşdırılmalıdır;
3) Asılı olmayan bəndlər, bir neçə ixtiraya aid edilir və 5 cümlə ilə ifadə edilir.

A) 1.3

B) Yalnız 1

C) Yalnız 2

D) Yalnız 3

E) 1.2

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

33. Hansı halda ixtiranın düsturu məlum və fərqləndirici hissələrə ayrılmadan tərtib edilir?
1) Fərdi kimyəvi birləşməni xarakterizə etdikdə;
2) Mikroorqanizm ştammını, bitki və heyvan hüceyrələri kulturunu xarakterizə etdikdə;
3) Əvvəllər məlum olan qurğu, üsul, maddə, ştammın yeni təyinat üzrə tətbiqini xarakterizə etdikdə;
4) Analoqları olan ixtiranı xarakterizə etdikdə.

A) 1,2,3

B) 1,2,4

C) 2,3,4

D) 1.4

E) 3.4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

34. İxtira düsturunun asılı olmayan bəndi:

A) İxtiranın ifasının və ya istifadə edilməsinin xüsusi hallarında ixtiranı xarakterizə edən mühüm əlamətlər məcmusu daxil edilir

B) Ancaq bir ixtiraya aid edilir və bir cümlə ilə ifadə edilir

C) Bir neçə ixtiraya aid edilir və bir cümlə ilə ifadə edilir

D) Bir neçə ixtiraya aid edilir və 5 cümlə ilə ifadə edilir

E) Ancaq bir ixtiraya aid edilir və 5 cümlə ilə ifadə edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

35. İxtira düsturunun asılı olan bəndlərinə:

A) Ən yaxın oxşarlığı olanın əlamətləri ilə üst-üstə düşən mühüm əlamətlər daxil edilir

B) İxtiranı ən yaxın oxşarlığı olandan fərqləndirən əlamətlər daxil edilir

C) İxtiranın ifasının və ya istifadə edilməsinin xüsusi hallarında ixtiranı xarakterizə edən mühüm əlamətlər məcmusu daxil edilir

D) İxtiranın yalnız fərqləndirici
hissələri daxil edilir

E) İxtıranın təyinatını əks etdirən soy anlayışının daxil edildiyi məlum məhdudlaşdırıcı hissələr daxil edilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

36. İxtira düsturunda üsulun əlamətləri kimi fəaliyyəti (hərəkət, əməliyyat) xarakterizə etmək üçün feil istifadə olunduqda onu necə şərh edirlər?

A) Məchul növdə

B) Məlum növdə, əmr formasında

C) Məchul növdə, cəm halında şərh edirlər

D) Məlum növdə, xəbər formasında, üçüncü şəxsin adından, cəm halında şərh edirlər

E) Məchul növdə, öz adindan şərh edirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

37. İxtiyari mənşəli fərdi kimyəvi birləşməni xarakterizə etmək üçün, ixtira düsturuna nələr daxil edilir?
1) Element tərkibi;
2)Molekulyar kütlə;
3) Maddənin optik aktivliyi;
4) Spektral analizin nəticələri.

A) 1.2

B) 1.3

C) 1,2,4

D) 1.4

E) Bütün bəndlər doğrudur

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

38. İxtiranın düsturunu kim imzalamalıdır?

A) İddiaçının iş yerindəki şöbə rəisi

B) İddiaçının iş yerində həmkarlar ittifaqı komitəsinin rəisi

C)  İddiaçı və ya buna müvəkkil edilmiş şəxs

D) İddiaçının iş yerində iqtisadi uçot çöbəsinin rəisi

E) İddiaçının iş yerində kadrlar şöbəsinin rəisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

39. Referat nədir?

A) Ədəbiyyat sıyahısı

B) İxtiranın təsvirinin məzmunun müxtəsər şərhi

C) İxtiraya ən yaxın analoqların məcmusu

D) Qrafıki materialların məcmusu

E) Çertyoj və ya sxemlərin siyahsı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

40. İxtiranın təsviri zamanı ədəbiyyatda geniş tətbiq edilməyən termin və işarələrdən istifadə etdikdə nə etmək lazımdır?

A) Mətndə hər dəfə onların işlədildiyi yerdə izahı verilməlidir

B) Mətndə onların izahı verilməməlidir

C) Mətndə onların sonuncu dəfə işlədildiyi yerdə izahı verilməlidir

D) Mətndə onların birinci dəfə işlədildiyi yerdə izahı verilməlidir

E) Termin və işarələrdən istifadə edilməməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

41. Iddia sənədlərinin tərtibinə qoyulan tələblər hansılardır? 1) İddia sənədləri elə tərtib edilir ki, onların qeyri-məhdud surətilərini bilavasitə çıxarmaq olsun; 2)İddia sənədləri, 110x110 mm formatlı ağ kağız vərəqlərində tərtib edilirlər ; 3) Iddia sənədinə qoşulan hər bir sənəd, ayrıca vərəqdən başlayır; 4) Sətirlər vərəqin kiçik tərəfinə paralel yerləşdirilməklə, hər bir vərəqin ancaq bir üzü istifadə olunur

A) 1,3,4

B) 1,2,4

C) 2,3,4

D) 2.4

E) 2.3

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

42. Ixtiraya aid ərizə, ixtiranın təsvirinin, ixtiranın düsturunun, referatın çap olunduğu vərəqlərdə, onun
kənarlarında sol və aşağı tərəfdən hansı ölçüdə boş yer buraxılalıdır? (mm ilə)

A) 20-30

B) 20-25

C) 15-25

D) 15-18

E) 25-40

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

43. Ixtiraya aid ərizə, ixtiranın təsvirinin, ixtiranın düsturunun, referatın çap olunduğu vərəqlərdə, onun
sağ tərəfindən hansı ölçüdə boş yer buraxılalıdır? (mm ilə)

A) 15-25

B) 20-25

C) 20-30

D) 15-18

E) 25-40

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

44. Təsvirin mətni, ixtiranın düsturu və referat, hansı məsafə ilə çap olunurlar?

A) 1 interval

B) 1,5 interval

C) 2 interval

D) 0,5 interval

E) 2,5 interval

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

45. Patent nədir?

A) Kənd təsərrüfatı nazirliyi tərəfindən verilən mühafizə sənədi

B) İxtira, faydalı model və sənaye nümunəsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən mühafizə sənədi

C) Əmək və əhalinin sosial müdafiə nazirliyi tərəfindən verilən mühafizə sənədi

D) İqtisadiyyat nazirliyi tərəfindən verilən mühafizə sənədi

E) Təhsl nazirliyi tərəfindən verilən mühafizə sənədi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

46. Üsul dedikdə nə başa düşülür?

A) İxtira, faydalı model və sənaye nümunəsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən mühafizə sənədi

B) Əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu

C) Funksional-konstruktiv vəhdətdə olan konstruktiv elementlərdən və ya onların məcmusundan hazırlanmış məmulat, mexanizm, tikili

D) İxtira, faydalı model və sənaye nümunəsinə patent almaq üçün tərtib edilmiş sənədlər toplusu

E) Bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

47. İddia sənədi dedikdə nə başa düşülür?

A) Məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədiikonstruktiv həlli

B) İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

C) Bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi

D) İxtira, faydalı model və sənaye nümunəsinə patent almaq üçün tərtib edilmiş sənədlər toplusu

E) Əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

48. Məhsul dedikdə nə başa düşülür?

A) Bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi

B) İxtira, faydalı model və sənaye nümunəsinə patent almaq üçün tərtib edilmiş sənədlər toplusu

C) Əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu

D) İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

E) Məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədiikonstruktiv həlli

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

49. İxtira dedikdə nə başa düşülür?

A) Əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu

B) İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

C) Funksional-konstruktiv vəhdətdə olan konstruktiv elementlərdən və ya onların məcmusundan hazırlanmış məmulat, mexanizm, tikili

D) Məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədiikonstruktiv həlli

E) Bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

50. Qurğu dedikdə nə başa düşülür?

A) Bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi

B) İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

C) Məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədiikonstruktiv həlli

D) Funksional-konstruktiv vəhdətdə olan konstruktiv elementlərdən və ya onların məcmusundan hazırlanmış məmulat, mexanizm, tikili

E) Əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

51. Patent haqqında Azərbaycan Respublikasının qanunvericiliyi nələrdən ibarətdir? (Tam dolğun cavabı seçin)

A) Yalnızı Azərbaycan Respublikasının Konstitusiyasından ibarətdir

B) Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli əmrindən ibarətdir

C) 2009-cu il 24 iyun tarixli 116 nömrəli, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin qərarından ibarətdir

D) Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli əmrindən ibarətdir

E) Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və bu Qanuna müvafiq qəbul edilən digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrdən ibarətdir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 1

52. İxtiranın düsturu haqqında sadalanan fikirlərdən hansı doğrudur?
1)İxtiranın düsturu, ixtiranın mahiyyətini ifadə edir;
2)İxtiranın düsturu 5-6 cümlə ilə ifadə edilir;
3)İxtiranın düsturu, ixtiranın mühüm əlamətlərinin məcmusunun məntiqi tərifi şəklində ifadə edilir;
4)İxtira düsturundakı əlamətlər elə ifadə olunur ki, onların eyniləşdirilməsini təmin etmək mümkün olmasın.

A) 1.2

B) 1.3

C) 1.4

D) 3.4

E) 2.4

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 2

53. İxtira, faydalı model və sənaye nümunələrinə hüquqlar kim tərəfindən qorunur və necə təsdiq edilir?

A) Azərbaycan Respublikası Prezidenti tərəfindən qorunur və əmrlə təsdiq edilir

B) İqtisadiyyat nazirliyi tərəfindən qorunur və əmrlə təsdiq edilir

C) Dövlət tərəfindən qorunur və patentlə təsdiq edilir

D) Kənd təsərrüfatı nazirliyi tərəfindən qorunur və əmrlə təsdiq edilir

E) Təhsil nazirliyi tərəfindən qorunur və əmrlə təsdiq edilir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 3

54. Hansı növ ixtira, faydalı model və sənaye nümunələri patentlə mühafizə edilmir və onun istifadəsi qadağandır?

A) Yeni növ dərmanların ixtirası

B) Kommersiya məqsədləri üçün istifadəsi ictimai mənafeyə, humanizm və əxlaqi prinsiplərə zidd olan, insanların, heyvanların həyat və sağlamlıqlarına, bitkilərin mühafizəsinə, ətraf mühitə ciddi ziyan vuran

C) Mikroorqanizm ştammının yeni təyinatı

D) Yeni qurğuların ixtirası

E) Yeni üsulun, maddənin, ixtirası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 3

55. Azərbaycan Respublikasının sənaye mülkiyyəti sahəsində müvafiq icra hakimiyyəti orqanı hansı vəzifəni həyata keçirir?

A) İxtira, faydalı model və sənaye nümunələrinin mühafizəsi sahəsində dövlət siyasətini həyata keçirir

B) İxtiraya patent almaq üçün iddia sənədinin tərtibinin təşkilini həyata keçirir

C) İxtiraya patent almaq üçün iddia sənədinin Referatını verir

D) İxtiraya patent almaq üçün ixtiranın düsturunu verir

E) Yeni növ dərmanların ixtirası həyata keçirir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 4

56. İxtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin verilməsi, onun ekspertizası, patentin verilməsi, həmçinin patent müvəkkillərinin attestasiyası, qeydiyyatı və fəaliyyəti ilə bağlı mübahisələrə harada baxılır?

A) Dissertasiya şurasında baxılır

B) İxtira müvəkkilinin iş yerinin elmi şurasında baxılır

C) Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasında baxılır

D) Təhsil nazirliyinin apelyasiya şurasında

E) Müvafiq icra hakimiyyəti orqanının apellyasiya şurasında baxılır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 5

57. Azərbaycan Respublikasının sənaye mülkiyyəti sahəsində müvafiq icra hakimiyyəti orqanı hansı vəzifələri həyata keçirir? 1) ixtira, faydalı model və sənaye nümunələrini dövlət reyestrində qeydə alır; 2) patent verir; 3) İxtiranın düsturunu hazırlayır; 4) patent müvəkkillərinin attestasiyasını və qeydiyyatını aparır

A) 1,2,3

B) 2,3,4

C) 3.4

D) 1,2,4

E) 2.3

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 5

58. Müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası haqqında Əsasnamə kim tərəfindən təsdiq edilir?

A) Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən

B) Təhsil nazirliyi tərəfindən

C) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən

D) İqtisadiyyat nazirliyi tərəfindən

E) Kənd Təsərrüfatı nazirliyi tərəfindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 5

59. Kimlər patent müvəkkili ola bilər?

A) Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşayan istənilən şəxslər

B) Azərbaycan Respublikası ərazisində daimi yaşayan, ali təhsili olan, Azərbaycan Respublikasının dövlət dilini bilən, patent müvəkkillərinin Dövlət reyestrində qeydiyyata alınan Azərbaycan Respublikasının vətəndaşı

C) Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları, eləcə də xarici vətəndaşlar

D) Yalnızız xarici ölkə vətəndaşları

E) Yalnzız ali təhsilli xarici ölkə vətəndaşları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 6

60. Patent müvəkkillərinin fəaliyyəti necə tənzimlənir?

A) Patent haqqında Azərbaycan Respublikasının Qanunu və müvafiq icra hakmiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə tənzimlənir

B) Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli 504 nömrəli əmri ilə

C)  24 iyun 2009-cu il tarixli 116 nömrəli, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin qərarı ilə

D) Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2009-cu il tarixli 203 nömrəli əmri ilə

E) Azərbaycan Respublikası Nazirlər Kabinetinin12 sentyabr 2020-ci il tarixli 336 nömrəli Qərarı ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 6

61. Nələr ixtira obyektləri sayılır?

A) Yalnız kimya sahəsinə aid olan texniki həllər

B) İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

C) Yalnız fizika sahəsinə aid olan texniki həllər

D) Yalnız biologiya sahəsinə aid olan texniki həllər

E) Yalnız tibb sahəsinə aid olan texniki həllər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7

62. Hansı obyektlər ixtira sayılmır?
1. Elmi nəzəriyyələr;
2. İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər;
3. Riyazi metodlar;
4.Qurğu (tikili kimi qurğu), bina, ərazi layihələri və planlaşdırma sxemləri.

A) 1,2,3

B) 2,3,4

C) 1,3,4

D) 2.4

E) 1.2

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7

63. Aşağıda sadalananlardan hansılar faydalı model sayılmır? 1) Qurğu obyektləri; 2) məmulatın xarici görkəminə aid edilən həllər; 3) inteqral sxemlərin topologiyası; 4) Estetik tələblərin təminatına yönələn həllər

A) 1,2,3

B) 1.4

C) 1.2

D) 2,3,4

E) 1,2,4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 8

64. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 9-ci maddəsinə əsasən hansı obyektlər sənaye nümunəsi sayıla bilər?

A) Məmulatın yalnız texniki funksiyasını şərtləndirən həllər

B) Arxitektura obyektləri (kiçik arxitektura formalarından başqa)

C) Sənaye, hidrotexniki və başqa stasionar qurğular

D) Çap məhsulları

E) Yeni və ya orijinal olan, sənayedə tətbiq edilə bilən sənaye nümunəsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 9

65. Azərbaycan Respublikası ərazisində patentin qüvvədə olma müddəti iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi gündən etibarən ixtira üçün neçə il müddətində müəyyənləşdirilir?

A) 20 il

B) 10 il

C) 5 il

D) 1 il

E) 6 ay

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

66. Hansı obyektlər ixtira sayılmır? 1) mikroorqanizmlər istisna olmaqla, bitkilər və heyvanlar, onların mahiyyət üzrə bioloji yetişdirilməsi üsulları (qeyri-bioloji və mikrobioloji üsullar istisna olmaqla); 2) inteqral mikrosxemlərin topologiyası; 3) şərti işarələr, cədvəllər və qaydalar; 4)İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər

A) 1.4

B) 2.4

C) 1,2,3

D) 1,2,4

E) 2,3,4

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 7

67. Azərbaycan Respublikası ərazisində patentin qüvvədə olma müddəti iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi gündən etibarən faydalı model üçün neçə il müddətində müəyyənləşdirilir?

A) 20 il

B) 15 il

C) 10 il

D) 25 il

E) 5 il

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

68. Azərbaycan Respublikası ərazisində patentin qüvvədə olma müddəti iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi gündən etibarən sənaye nümunəsi üçün neçə il müddətində müəyyənləşdirilir?

A) 10 il

B) 15 il

C) 30 il

D) 25 il

E) 1 il

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

69. İxtira patentinin predmeti qanunvericiliyə uyğun olaraq inzibati prosedurlardan keçməsi tələb olunan məhsula və ya məhsulun hazırlanma üsuluna aid olarsa, patent sahibinin vəsatəti əsasında patentin qüvvədə olma müddəti nə qədər uzadıla bilər?

A) 10 ilə qədər

B) 15 ilə qədər

C) 1 ilə qədər

D) 6 aya qədər

E) 5 ilə qədər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

70. İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması qaydaları kim tərəfindən müəyyən edilir?

A) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən

B) Həmkarlar ittifaqı komitəsi tərəfindən

C) Ali Attestasiya Komissiyası tərəfindən

D) İqtisadiyyat nazirliyi tərəfindən

E) Azərbaycan Respublikası Prezidenti tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

71. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 10-cu maddəsinə əsasən kimlər müəllif sayılır?

A) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olmayan şəxs

B) İxtiranın, faydalı modelin və sənaye nümunəsini yaradıcı əməyi ilə yaradan şəxs

C) İxtiranı yaradan şəxsin işlədiyi qurumun şöbə rəisi

D) İxtiranı yaradan şəxsin işlədiyi qurumun həmkarlar komitəsinin sədri

E) İxtiranı yaradan şəxsin işlədiyi qurumun kadrlar şöbəsinin rəisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

72. Sənaye nümunəsi patentinin qüvvədə olma müddəti patent sahibinin vəsatəti əsasında nə qədər uzadıla bilər?

A) 1 ildən artıq olmamaq şərtilə

B) 2 ildən artıq olmamaq şərtilə

C) 5 ildən artıq olmamaq şərtilə

D) 6 aydan artıq olmamaq şərtilə

E) 10 ildən artıq olmamaq şərtilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

73. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 10-cu maddəsinə əsasən kimlər müəllif sayıla bilməz?

A) İxtiranın, faydalı modelin və sənaye nümunəsini yaradıcı əməyi ilə yaradan şəxs

B) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olan,həmçinin texniki, təşkilati və ya maddi yardım etmiş şəxs

C) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olan, həmçinin sənaye nümunəsi üzərində hüquqların rəsmiləşdirilməsinə kömək göstərmiş fiziki şəxslər

D) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olmayan, müəllifə (müəlliflərə) yalnız texniki, təşkilati və ya maddi yardım etmiş, yaxud ixtira, faydalı model və sənaye nümunəsi üzərində hüquqların rəsmiləşdirilməsinə və ondan istifadəyə kömək göstərmiş fiziki şəxslər

E) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olan, həmçinin faydalı model üzərində hüquqların rəsmiləşdirilməsinə kömək göstərmiş hüquqi şəxslər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 10

74. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 12-ci maddəsinə əsasən patent hansı şəxslərə verilir? 1) ixtira, faydalı model və sənaye nümunəsinin müəllifinə (müəlliflərinə) və ya onun (onların) varisinə; 2) patent verilməsi barədə iddia sənədində,

yaxud ixtira, faydalı model və sənaye nümunəsi qeydiyyata alınana qədər müvafiq icra hakimiyyəti orqanına verilmiş ərizədə müəllifin
(müəlliflərin) və ya onun (onların) hüquqi varislərinin göstərdikləri hüquqi və ya fiziki şəxslərə (onların razılığı ilə); 3) İxtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olmayan şəxslərə

A) 1

B) 2

C) 3

D) 2.3

E) 1.2

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 12

75. Xidməti vəzifələrinin həyata keçirilməsi və ya işəgötürənin yazılı şəkildə verdiyi (istehsal, elmi-tədqiqat, bədii-qrafik və başqa səpkili) tapşırığı ilə əlaqədar işçinin yaratdığı ixtira, faydalı model və sənaye nümunəsi üçün patent almaq hüququ kimə məxsusdur?

A) Birbaşa işəgötürənə mənsubdur

B) İşçinin işlədiyi yerin həmkarlar ittifaqı komitəsinə mənsubdur

C) Yalnız işçinin təyin etdiyi hüquqi varisinə mənsubdur

D) İşçinin işlədiyi yerin iqtisadiyyat və uçot şöbəsinin müdirinə mənsubdur

E) Yalnız işçiyə mənsubdur

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 13

76. İxtira, faydalı model və sənaye nümunəsini yaratmış işçi (işçilər) bu barədə işəgötürənə obyekti yaratdıqdan sonra 1 ay ərzində yazılı bildiriş göndərdikdən sonra ,işəgötürən ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədi verməkdən imtina edərsə və ya bildirişi aldığı tarixdən sonra 3 ay müddətində bu hüquqdan istifadə etmək niyyətini işçiyə bildirməzsə bu hüquq kimə keçir?

A) İşəgötürəndə qalır

B) İşçiyə keçir

C) İşçinin işlədiyi yerin həmkarlar ittifaqı komitəsinə keçir

D) İşçinin işlədiyi yerin hüquq şöbəsinin rəisinə keçir

E) İşçinin işlədiyi yerin iqtisadiyyat və uçot şöbəsinin müdirinə keçir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 13

77. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 13-cü maddəsinə əsasən işəgötürən və işçi ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini nə zamanadək açıqlamamalıdırlar?

A) 5 il müddətində

B) 10 il müddətində

C) İddia sənədi verilənədək

D) 1 il müddətində

E) İstənilən zaman açıqlaya bilərlər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 13

78. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 13-cü maddəsinə əsasən İşəgötürən və işçi arasında ixtira, faydalı model və sənaye nümunəsinə dair yaranan mübahisələrə necə baxılır?

A) İşçinin işlədiyi yerin həmkarlar ittifaqı komitəsində baxılır

B) İşçinin işlədiyi yerin hüquq şöbəsində baxılır

C) İşçinin işlədiyi yerin iqtisadiyyat və uçot şöbəsinində baxılır

D) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmədə

E) İşçinin işlədiyi yerin kadrlar şöbəsində baxılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 13

79. Patent haqqında Azərbaycan Respublikasının Qanunu 14-cü maddəsinə əsasən Patent sahibi patentə görə hansı müstəsna hüquqlara malikdir?
1.Patentin obyekti məhsul (məmulat) olduqda, patent sahibinin razılığı olmadan üçüncü şəxs tərəfindən onun icazəsiz istehsalının, istifadəsinin, satış üçün təklif olunmasının,

satışının və bu məqsədlər üçün idxalının qarşısını almaq;
2.Patentin obyekti üsul olduqda, patent sahibinin razılığı olmadan üçüncü şəxs tərəfindən bu üsulun tətbiqi ilə bağlı hərəkətlərin, habelə bilavasitə bu üsulla alınan məhsuldan istifadənin, məhsulun satışının, satış üçün təklif olunmasının və ya bu məqsədlər üçün idxalının qarşısını almaq;
3.Mühafizə olunan sənaye nümunəsinin sahibi icazəsiz üçüncü şəxs tərəfindən həmin nümunənin və ya ona bənzər olan nümunənin surətini özündə daşıyan və ya tərkibinə daxil edən məmulatın kommersiya məqsədilə hazırlanmasına müdaxilə etməməlidir.

A) 1.3

B) 1,2,3

C) 3

D) 2.3

E) 1.2

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 14

80. ...........İxtira, faydalı model və sənaye nümunəsindən lisenziya müqaviləsində nəzərdə tutulmuş həcmdə müstəsna istifadə hüququ verir. (Nötələrin yerini tamamlayın)

A) Müstəsna lisenziya

B) Akkredetasiya

C) Attestasiya

D) Sublisenziya

E) Qeyri-müstəsna lisenziya

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 19

81. ..........zamanı lisenziar ixtira, faydalı model və sənaye nümunəsindən istifadə hüququnu müqavilə əsasında lisenziata verməklə patentlə təsdiq edilən bütün hüquqları, o cümlədən üçüncü şəxslərə lisenziya vermək hüququnu özündə saxlayır. (Nötələrin yerini tamamlayın)

A) Akkreditasiya

B) Qeyri-müstəsna lisenziya

C) Bəyannamə

D) Attestasiya

E) Müstəsna lisenziya

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 19

82. Sadalanan lisenziyalardan hansılar qeyri-müstəsna xarakter daşıyır?
1.Məcburi lisenziya;
2.Müstəsna lisenziya;
3.Sublisenziya.

A) Yalnız 1

B) 2.3

C) 1.3

D) Yalnız 2

E) 1.2

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 19,20

83. Lisenziat məcburi lisenziyanın verildiyi tarixdən hansı müddət ərzində istifadə etmədikdə patent sahibi qanunvericiliklə müəyyən edilmiş qaydada lisenziyanın ləğv edilməsi barədə məhkəməyə müraciət edə bilər?

A) 6 ay

B) 1 ay

C) 10 il

D) 2 il

E) 6 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 20

84. Patent sahibinin müstəsna hüquqlarının pozulması halı hansı bənddə göstərilmişdir?

A) Tərkibində patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsi olan vasitələrdən qeyrikommersiya məqsədləri üçün gəlirsiz istifadəsi

B) Patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi obyektlərinin elmi, eksperiment, tədqiqat və həmin obyektlərin yoxlanılması məqsədləri üçün patentin qüvvədə olma müddəti bitənədək böyük həcmdə istehsala gətirib çıxarmaması şərti ilə istifadəsi

C) Patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi obyektlərinin elmi, eksperiment, tədqiqat və həmin obyektlərin yoxlanılması məqsədləri üçün patentin qüvvədə olma müddəti bitənədək məhsulların toplanmasına gətirib çıxarmaması şərti ilə istifadəsi

D) Həkimin resepti üzrə birdəfəlik istifadə üçün dərman haırlanması

E) Patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi obyektlərinin təsərrüfat dövriyyəsinə başqa şəkildə daxil edilməsi və ya bu məqsədlə saxlanması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 22

85. Beynəlxalq iddia sənədi müvafiq icra hakimiyyəti orqanına verildikdə həmin iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən hansı müddət ərzində iddiaçı onun düsturunun, referatının və təsvirinin Azərbaycan dilində tərcüməsini təqdim etməlidir?

A) 2 ay ərzində

B) 6 ay ərzində

C) 1 il ərzində

D) 5 gün ərzində

E) 10 gün ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 26

86. İddiaçı müvafiq icra hakimiyyəti orqanına iddia sənədini hansı qaydada verə bilər?

A) Elektron poçtla

B) Bilavasitə özü və ya müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmış patent müvəkkili vasitəsilə

C) Kuryer vasitəsilə

D) Any desk proqramı vasitəsilə

E) İstənilən şəxs vasitəsilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Patent haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə. 27

87. Patent haqqında Azərbaycan Respublikasının Qanunu, 27-ci maddəyə əsasən patent müvəkkillərinin səlahiyyətləri necə təsdiq edilir?

A) Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə

B) Təhsil nazirliyinin fərmanı ilə

C) İddiaçı tərəfindən verilən etibarnamə ilə

D) Azərbaycan Respublikası Ali Attestasiya komissiyası qərarı ilə

E) Müvəkkilin öz qərarına əsasən

